F-67075 Strasbourg Cedex

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

| | |
|---|---|
| A PRIOR | Belgique - België |
| IF UNDELIVERED RETURN TO<br>PO BOX 3446<br>1934 EMC - Brucargo | P.P. - P.B. |
| | BP 3446 |

PRIORITAIRE

European Court of Human Rights
Cour européenne des Droits de l'Homme

COUR EUROPEENNE
DES
DROITS DE L'HOMME

CONSEIL DE L'EUROPE
STRASBOURG

EUROPEAN COURT
OF
HUMAN RIGHTS

COUNCIL OF EUROPE
STRASBOURG

Herrn
Rustem ISMAIL
Wichmannstr. 9
D-10787 BERLIN

**BEŞİNCİ BÖLMƏ**

ECHR-LAze1.1R
KU/**BPE**/lch

Strasburq, 15 fevral 2008-ci il

**<u>Ərizə № 6859/08</u>**
**Ismail (II) / Almaniya**

Hörmətli cənab İsmayıl,

Sizin 20 yanvar 2008-ci il tarixli şikayət ərizənizin və ona qoşulmuş sənədlərin alınmasını təsdiq edirəm. **Sizin qovluğunuza yuxarıda göstərilən nömrə verilmişdir. İşinizlə bağlı gələcək yazışmalarda bu qovluq nömrəsinə istinad etməlisiniz.**

Məhkəmədə işinizə real vaxt çərçivəsində, təqdim etdiyiniz sənədlər və məlumatlar əsasında baxılacaqdır. **Ərizənizə əlavə olaraq sənədlər göndərmək istəyirsinizsə, bu sənədlərin əsillərini Məhkəməyə göndərməməlisiniz, belə ki, onlar Sizə qaytarılmayacaq.** Məhkəmənin icraatı yazılı şəkildədir və Sizin Məhkəməyə gəlməyiniz məhz Məhkəmə Sizi dəvət etdiyi halda tələb olunacaqdır. Məhkəmə tərəfindən qəbul edilən hər hansı bir qərar haqqında xəbərdar ediləcəksiniz.

Sizin ünvanınızda olan dəyişikliklər barədə məni xəbərdar etməlisiniz. Bundan başqa, öz təşəbbüsünüzlə yuxarıda qeyd edilən işlə əlaqədar baş verən bütün yeniliklər barədə Məhkəməyə məlumat verməli və ölkədaxili səlahiyyətli orqanların müvafiq qərarlarını təqdim etməlisiniz.

Nəzərinizə çatdırıram ki, ümumi qayda olaraq bundan sonrakı məktublarınızın alınmasına dair təsdiq məktubu göndərilməyəcək. Bu məsələ ilə bağlı telefonla da xəbər verilməyəcək. **Məktublarınızın Məhkəməyə çatmasından əmin olmaq istəyirsinizsə, onları "xəbərnaməli" göndərməlisiniz.**

Hörmətlə,
Katib adından

po / Keller

K. Uerpmann
Hüquqşünas

ADRESSE POSTALE / POSTAL ADDRESS:
CONSEIL DE L'EUROPE / COUNCIL OF EUROPE
F – 67075 STRASBOURG CEDEX

TELEPHONE:
00 33 (0)3 88 41 20 18

INTERNET:
http://www.echr.coe.int

TELECOPIEUR/FAX:
00 33 (0)3 88 41 27 30